**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 360**

**Bakı şəhəri, 28 avqust 2018-ci il**

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 16-cı hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının 11 nəfərdən ibarət aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının səhiyyə naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası səhiyyə nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Aparatının tibbi yardımın təşkili şöbəsinin müdiri

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Aparatının sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri, Azərbaycan Respublikasının baş dövlət sanitariya həkimi

Azərbaycan Tibb Universitetinin rektoru Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi

Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi

2.“Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 16 yanvar tarixli 10 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 41, № 10, maddə 905; 2007, № 10, maddə 1024; 2009, № 3, maddə 199; 2010, № 5, maddə 466; 2012, № 7, maddə 782) 1-ci hissəsi ləğv edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**